# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
H.Əliyev

№ 2 (293) 12 - 18 Yanvar, Çileya paş, sal, 2015
Ji meha şûbatê sala 2003-a tê weşandin
Həftəlik İctimai-siyasi qəzet
Rojnama heftename civakî û sîyasî
Qiyməti: 40 qəpik
Hêjaye:


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məsçidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu



Səh. 2

Prezident: "Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artıb"



Səh. 8

Barzanî: Em piştevan û hevxemê gelê Fransayê ne



Səh. 9

"Bi hemû şêweyan piştgiriya gelê Frensa dikin"



Səh. 3

"Sülh olsa Türkiyəyə qayıdaram, Türkiyə gözəldir" – PKK lideri



Səh. 9

Demîrtaş: Em dê baraja hilbijartinan hilweşînin



Səh. 13

Anayasa Mahkemesi hükümetin Baskısına Boyun Eğdi



Səh. 7

110 saliya Rojbûna Apo Osman Sebrî li Qamişlo

‘Kürdistan’ İsmine Yasak Səh. 11

Ermənistanda kürd problemi Səh. 3

Hêzên Pêşmerge êrişa DAIŞ şikandin Səh. 8

Ti kesî wek Serok Barzanî xema Şingalê nexwariye Səh. 8

"Türkiyə xüsusi təyinatlıları İŞİD daxilində vuruşur" Səh. 3

İtirdiyimiz tarixi yurdlar: ZƏNGƏZUR Səh. 6



Səh. 10

Emin resena Kurdistanê



Səh. 4

Diyarbəkirdə ermənilərin Türk-Kürd qardaşlığına qarşı əməllərinin iç üzü açıldı




Səh. 9

Hîn jî 3000 jinên Êzîdî li cem DAIŞ in!



Səh. 10

Roja Heşrê

www.arsivakurd.org

# Prezident: "Neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artıb"

"Keçən ilin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr uğurla icra edilmişdir. 2014-cü il də ölkəmiz üçün uğurlu il kimi tarixdə qalacaq". Lent.az-ın prezidentin rəsmi saytına istinadən verdiyi xəbərə görə, bu barədə bu gün Nazirlər Kabinetinin 2014-cü ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Azərbaycan prezidenti İlham Əliyev deyib.

Dövlət başçısı bildirib ki, bir il bundan əvvəl qarşıya mühüm vəzifələr qoyulmuşdur və il ərzində çox gərgin iş aparılıb: "Keçən il dünyada və bölgədə müxtəlif proseslər gedib. Gərginlik, demək olar ki, böyük dərəcədə artıb. Ancaq Azərbaycan öz sürətli inkişaf tempini saxlaya bilib. Ölkəmizin təhlükəsizliyi təmin edilmişdi, iqtisadi və sosial proqramlar icra olunub. Azərbaycan xalqı 2014-cü ildə də təhlükəsizlik şəraitində yaşayıb". "Bu, bir daha onu göstərir ki, bizim tutduğumuz yol düzgün yoldur. Azərbaycan müstəqillik, inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı bürümüş iqtisadi və maliyyə böhranı, eyni zamanda, bölgədə baş verən xoşagəlməz hadisələr, toqquşmalar Azərbaycanın uğurlu inkişafına təsir etməyib. Bunun başlıca səbəbi Azərbaycanda ictimai-siyasi vəziyyətin sabit olmasıdır, xalqla iqtidar arasındakı birlikdir və bizim bütün proqramlarımızın uğurla icrasıdır. Azərbaycanın apardığı xarici və daxili siyasət xalq tərəfindən dəstəklənir və əminəm ki, bu il də görüləcək işlər nəticəsində Azərbaycan daha da güclənəcək", deyə dövlət başçısı vurğulayıb.

Prezident İlham Əliyev ölkə iqtisadiyyatının uğurla inkişaf etdiyini vurğulayıb: "Keçən ilin əvvəlində qarşıya vəzifə qoyulmuşdur ki, həm ümumi daxili məhsul, eyni zamanda, qeyri-neft sektorumuz artsın. Bu iki əsas vəzifə tam şəkildə təmin edilib. İqtisadiyyatımız təxminən 3 faiz artıb. Bu, bugünkü dünyada çox gözəl göstəricidir. Bəzi ölkələrdə artım da yoxdur, əksinə, tənəzzül müşahidə edilir. Artım olan ölkələrdə bu, 1 faizə qədərdir". Dövlət başçısının sözlərinə görə, ilin sonunda neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, Azərbaycanda iqtisadiyyat 3 faizə yaxın artıb: "Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artıb. Bu da son illər ərzində görülən işlərin bariz nümunəsidir, aparılan siyasətimizin təzahürüdür. Qeyri-neft sektoru gələcəkdə Azərbaycanın iqtisadi inkişafını daha da böyük həcmdə təmin edəcək. Qeyri-neft sektorunun inkişafı bizə imkan verir ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin və iqtisadiyyatımızın dayanıqlı inkişafı təmin edilsin". "İnflyasiya çox aşağı səviyyədə olub - 1,4 faiz. Bu da çox gözəl göstəricidir. Əhalinin pul gəlirləri isə 4,8 faiz artıb. Əhalinin pul gəlirləri inflyasiyanı üç dəfədən çox üstələyib. Deyə bilərəm ki, son illər ərzində bu mənzərə müşahidə olunur - əhalinin pul gəlirləri inflyasiyanı bir neçə dəfə qabaqlayır. Bu da insanların rifah halının yaxşılaşmasına müsbət təsir göstərir.

Ölkə iqtisadiyyatına 27 milyard dollar investisiya qoyulub. Onlardan 16 milyardı daxili sərmayədir. Bu da çox sevindirici haldır. Son illər ərzində daxili sərmayələr qoyulan investisiyaların həcmində üstünlük təşkil edir. Eyni zamanda, qoyulan 11 milyard dollar xarici sərmayə göstərir ki, Azərbaycan xarici investorlar üçün cəlbedici ölkə kimi qalır. İndiki şəraitdə, dünyada və bölgədə müşahidə olunan çox ağır vəziyyəti nəzərə alaraq 11 milyard dollar xarici investisiyaları cəlb etmək böyük uğurumuzdur", deyə prezident qeyd edib. Prezident İlham Əliyev qeyd edib ki, bu uğurun təməlində son illərdə aparılan siyasət dayanır: "Əgər bu siyasət, investorların Azərbaycanın sabitliyinə, gələcəyinə inamı olmasaydı, heç kim Azərbaycana vəsait qoymazdı. 27 milyard dollar həcmində investisiya qoyuluşu və bunun müqabilində 1,4 faizlik inflyasiya Azərbaycanın uğurlu inkişafının ən gözəl göstəricisidir. Çünki həm pensiyalar, maaşlar, həm də əhalinin pul gəlirləri artıb, böyük həcmdə investisiya qoyulub, inflyasiya isə ən aşağı səviyyədədir". Manatın məzənnəsinin sabit olduğunu bildirən ölkə başçısı bir neçə ildir ki, manatın məzənnəsinin nəinki sabit olduğunu, eyni zamanda, əsas dünya valyutalarına qarşı daha da böyük dəyər qazandığını qeyd edib: "Keçən il də biz bunu görmüşük. Bu da çox müsbət göstəricidir. Çünki manatın sabit olması ilk növbədə, insanların rifah halının yaxşılaşmasına xidmət göstərir, əhalinin alıcılıq qabiliyyəti artır".

"Biz elə etməliyik ki, valyuta ehtiyatlarımız artsın. Biz bunu təmin edə bilmişik. Hazırda bizim 50 milyard dollardan çox valyuta ehtiyatlarımız var. Biz bu imkanlardan səmərəli şəkildə istifadə edirik. Həm valyuta ehtiyatlarımızı ildən-ilə artırırıq, eyni zamanda, ölkəmizin dayanıqlı tərəqqisi üçün bu imkanlardan istifadə edib iqtisadiyyatın inkişafına, infrastruktur layihələrinin icrasına böyük həcmdə vəsait qoyuruq.

Bir sözlə, 2014-cü ildə əsas iqtisadi göstəricilərimiz çox müsbətdir, deyə bilərəm ki, bəlkə dünya miqyasında ən gözəl göstəricilərdir. Azərbaycan son 11 il ərzində dünyada iqtisadi artım templərinə görə ən sürətlə inkişaf edən ölkədir. Bunu əhali, xalqımız görür, gözəlləşən ölkəmiz bunun bariz sübutudur. Eyni zamanda, bunu mötəbər beynəlxalq iqtisadi qurumlar qeyd edirlər. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, 2014-cü ildə Azərbaycan iqtisadiyyatı dünyada



rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görülüb. Yəni, biz dünyanın ən rəqabətli 40 iqtisadiyyatı arasındayıq. Bu, tarixi nailiyyətdir", deyə prezident vurğulayıb. Sosial sahəyə toxunan dövlət rəhbəri bu sahənin daim prioritet olduğunu, bu il də prioritet olaraq qalacağını qeyd edib: "Sosial obyektlərin inşası uğurla təmin edilib, 60-dan çox tibb mərkəzi, 50-dən artıq məktəb tikilib istifadəyə verilib. Əməkhaqqı, pensiya artıb. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 600 dollara yaxınlaşır. Biz çalışacağıq ki, bu templər ildən-ilə daha sürətlə təmin edilsin. 400 min insana ünvanlı sosial yardım verilir, 90 mindən çox ailə dövlətdən ünvanlı sosial yardım alır. Dövlət tərəfindən hər ailəyə orta hesabla 155 manat, yəni, 200 dollara yaxın vəsait verilir". Prezident insanların rifah halının yaxşılaşdıqca ünvanlı sosial yardıma ehtiyacı olanların sayının azalacağına əmin olduğunu bildirib: "Çünki hazırda Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Keçən il də yoxsulluq aşağı düşübdür, işsizlik 5 faizdən aşağıdır. Bizim gördüyümüz işlərin nəticələri bax, budur. Bu rəqəmlər özlüyündə bizim uğurlu inkişafımızı təsdiq edir". Keçən il Azərbaycanda "Sənaye ili" elan edildiyini xatırladan ölkə başçısı 230-dan çox sənaye müəssisəsinin yaradıldığını qeyd edib: "123 min yeni iş yeri açılıb ki, onlardan təxminən 100 mini daimi iş yeridir. Bu proses də sürətlə getməlidir. Çünki Azərbaycanda yeni iş yerlərinin yaradılmasına hələ də ehtiyac var. İşsizlik hələ var, eyni zamanda, sürətli iqtisadi inkişaf demoqrafik vəziyyətə müsbət təsir edib. Keçən il Azərbaycanda əhalinin sayı 116 min nəfər artıb. Odur ki, yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. Bu, belədir və bu il də bu istiqamətdə əlavə tədbirlər görüləcək".

"Keçən il bir neçə iri layihə icra edilib. Hər bir layihə özlüyündə nəhəng bir layihədir. Mən onların arasında Heydər Əliyev Beynəlxalq Aeroportunun yenidən qurulmasını xüsusilə qeyd etmək istəyirəm. Eyni zamanda, Ələt Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalı istifadəyə verilib. Yəni, bu layihənin birinci mərhələsinin birinci hissəsi artıq icra edilib. Şəmkirçay su anbarı istifadəyə verilib. Bu da nəhəng layihədir, ölkəmizin uzunmüddətli və sürətli inkişafına təkan verəcək. Eyni zamanda, böyük sənaye müəssisələri, o cümlədən "Norm" sement zavodu istifadəyə verilib ki, orada sementin istehsalı 2 milyon tona bərabərdir. Bu zavodun istifadəyə verilməsi ilə biz artıq idxaldan asılılığımızı tamamilə aradan götürmüşük və ixrac imkanlarımız da artır", deyə prezident qeyd edib.

Dövlət başçısının sözlərinə görə, dünyanın müxtəlif yerlərində böhran – iqtisadi böhran, maliyyə böhranı, siyasi böhran yaşanır: "Belə olan halda nəinki investisiyalar qoyulmur, hətta maaşlar, pensiyalar kəsilir, iş yerləri ixtisar edilir. Ancaq buna baxmayaraq, biz Azərbaycanda bunun tam əksini görürük. Nəzərə alsaq ki, Azərbaycan dünya iqtisadiyyatına çoxdan inteqrasiya edib, biz dünya iqtisadiyyatının bir parçasıyıq, belə uğurlu mənzərəni təmin etmək üçün, əlbəttə, böyük səylər göstərilməli, uzunmüddətli, düşünülmüş siyasət aparılmalı idi. Biz buna planlı, əsaslı şəkildə nail ola bilmişik. Bu nəticələr deməyə əsas verir ki, Azərbaycan bundan sonrakı illərdə də uğurla inkişaf edəcək". Dünyada neftin qiymətinin kəskin şəkildə, 2 dəfədən çox aşağı düşdüyünü bildirən prezident İlham Əliyev bunun ölkənin gəlirlərinə mənfi təsir edəcəyini qeyd edib: "Ancaq buna baxmayaraq, iqtisadiyyatımızın şaxələndirilməsi istiqamətində görülən və bundan sonra görüləcək işlər, institusional islahatlar və daha da səmərəli idarəetmə üsullarının tətbiq edilməsi nəticəsində əminəm ki, Azərbaycan bu vəziyyətdən də şərəflə çıxacaq, manatın məzənnəsi sabit olaraq qalacaq, iqtisadi inkişaf təmin ediləcək". Keçən il ikinci peykin orbitə buraxıldığını xatırladan dövlət başçısı bunun nəhəng layihələr arasında özünəməxsus yer tutan bir layihə olduğunu bildirib: "Artıq bizim iki peykimiz var. Biri telekommunikasiya peyki, ikincisi Yer səthini müşahidə edən peyk. Bunun çox böyük əhəmiyyəti var və Azərbaycanda kosmik sənayenin inkişafı sürətlə gedir. Biz yeni texnologiyalara, innovasiya layihələrinə sərmayə qoyuruq və bu layihələr həm elmin inkişafına xidmət göstərir, idarəetmə məsələlərini təkmilləşdirir, eyni zamanda, cəmiyyətdə hələ də mövcud olan xoşagəlməz halların qarşısını alır". "ASAN xidmət" mərkəzlərinin açılmasını xüsusilə qeyd edən prezident İlham Əliyev artıq 7 mərkəzin fəaliyyət göstərdiyini qeyd edib: "İki il ərzində 3 milyon 500 min müraciət olub və orada göstərilən xidmətlərin sayı artır, keyfiyyəti yüksək səviyyədədir, cəmiyyət tərəfindən çox müsbət qarşılanır. Korrupsiya və rüşvətxorluğa qarşı son illər ərzində aparılan institusional islahatlar içərisində "ASAN xidmət" əlbəttə ki, ön plandadır. İndi bizim təcrübəmiz başqa ölkələrdə də öyrənilir. On yeni avtobus alınmışdır, səyyar xidmət daha da böyük coğrafi məkanda təmin ediləcək. Beləliklə, bu xidmət həm yenilik, həm rahatlıq gətirib, həm də korrupsiyaya, rüşvətxorluğa qarşı mübarizədə çox ciddi dönüş yaradıb. Həm praktiki nöqteyi-nəzərdən, eyni zamanda, cəmiyyətdə bu bəlanın aradan qaldırılması üçün indi daha da böyük imkanlar var, daha da çox insan bu məsələlərə nikbinliklə yanaşır. Bizim istəyimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sahələrdə işlər ən yüksək səviyyədə təmin edilsin. Sosial siyasətdə, iqtisadi inkişafda, idarəetmədə xoşagəlməz halların aradan qaldırılması, əlbəttə ki, bütün bu gözəl mənzərəni tamamlayacaq və bu istiqamətdə işlər məqsədyönlü şəkildə aparılır. Bizim çox güclü siyasi iradəmiz var, təşəbbüslərimiz xalq tərəfindən dəstəklənir və niyyətlərimiz artıq real işlərdə özünü göstərir". Dövlət başçısı giriş nitqini yekunlaşdıraraq qeyd edib ki, nə neftin qiymətinin düşməsi, nə böhranlar, nə yaxınlıqda baş verən qanlı toqquşmalar ölkənin sürətli inkişafına təsir edə bilməz: Mən tam əminəm ki, biz 2015-ci ili də uğurla başa vuracağıq və ölkəmizin inkişafını təmin edəcəyik".



# Öcalana görə həbslər başladı

Türkiyədə PKK lideri Abdulla Öcalana görə həbslər başlanıb. Axar.az Öcalanın azadlığa buraxılması tələbi ilə başladılan imzatoplama kampaniyasına dəstək verənlərin saxlandığı xəbərini verir. Mardin Qızıltəpə bələdiyyəsi başqanları İsmayıl Ası və Leyla Salman istintaqa cəlb edilib. Batman bələdiyyəsi başqanı Gülüstan Akel də saxlanılıb. Bu kampaniyanın qanuni olmadığı qeyd edilib. Yayılan son xəbərdə Batman bələdiyyəsində daha 8 nəfərin həbs edildiyi deyilir. Xatırladaq ki, Türkiyədə Öcalanın azad olunması istiqamətində pərdəarxası danışıqlar gedir. Rəsmi müzakirələrdə onun azad edilməsi haqda fikirlər səslənsə də, hər hansı real addım atılmayıb.

# "Sülh olsa Türkiyəyə qayıdaram, Türkiyə gözəldir" – PKK lideri

PKK-nın bir qolu olan KCK-nın rəhbəri və PKK-nın Qəndil dağındakı idarəçisi Cəmil Bayık Almaniyanın "Die Zeit" qəzetinə müsahibə verib.

Avropa.info xəbər verir ki, PKK lideri qəzetə müsahibəsi zamanı sülh olacağı təqdirdə Türkiyəyə qayıdacağını bildirib. O sülh olacağı təqdirdə Qəndil dağından ediləcək bir işin olmadığını, Türkiyəyə qayıdaraq siyasətlə məşğul olacağını söyləyib.

- PKK Yaxın Şərqdə həmişə mənfi bir obraz kimi görünüb. Bu Kobani bölgəsinin İŞİD-in əlindən xilas olunması üçün başladılan əməliyyatlara qədər belə davam edib. Birdən birə yaxşı olaraq ortaya çıxmaq necə bir hisdir?

- Əslində bizi səhv təqdim ediblər. Ola bilsin ki, bizim də səhvlərimiz olub. Amma səhvi olan tək biz deyilik. Avropa və ABŞ bizə hər zaman Türkiyə dövlə-



tinin gözü ilə baxıb.

- Bəs sizin səhviniz nədə idi?

- 1990-cı illərin ortalarına qədər həyata keçirdiyimiz bəzi əməliyyatlar.

- Keçmişdə etdiyiniz, amma bu gün peşman olduğunuz bir hadisəyə misal göstərə bilərsinizmi?

- Türkiyədə kənd müdafiəçilərinə qarşı mövqeyimizə görə peşmanam.

- Kobanidə vəziyyət necədir?

- Kobani çətin günləri geridə qoyub. Hər gün yeni bir yeri geri alırıq.

- Türklərlə kürdlərin arasında sülh ola biləcəyini düşünürsünüzmü?

- Ümid insanı yaşadan bir duyğudur. İlk dövrlərdə də ümidlə bu yola girmişdik. Amma indi təcrübələrimiz və gücümüz var. Hazırda bizi ümidləndirəcək bir məsələ yoxdur.

- Türkiyə üçün darıxırsınızmı? Axı siz orada doğulub boya-başa çatmısınız.

- Sülh olsa Türkiyəyə qayıdaram, Türkiyə gözəldir. O zaman burada nə edəcəm ki, qayıdıb siyasətlə məşğul olaram. PKK-da təqaüdə çıxmaq olmur axı.

# "Türkiyə xüsusi təyinatlıları İŞİD daxilində vuruşur"



"Türkiyə hökuməti bizi məhv etmək üçün əlindən gələni edir". Axar.az xəbər verir ki, bu bəyanatla PKK-nın İcra Şurasının sədri Cəmil Bayık çıxış edib.

Bayık İŞİD və Azad Suriya Ordusu daxilində Türkiyə xüsusi təyinatlılarının heç bir yerdə qeydiyyatı olmayan qeyri-rəsmi birliklərinin PKK-ya qarşı vuruşduqlarını iddia edib.

Bayık Türkiyənin rəsmi olaraq PKK-ya qarşı müharibə etməyəcəyini bildirməsinə baxmayaraq, bu cür yollarla onlarla müharibə aparıldığını da vurğulayıb. Öz bəyanatını çox ağır qiymətləndirən Bayık təbliğat aparmadığını, problemin necə həll ediləcəyinə dair fikirlərin olmadığını qeyd edib.

# Ermənistanda kürd problemi

Erməni məmurları kürdləri ölkədən birdəfəlik çıxarmağa çalışırlar. Ermənilərlə yanaşı yezidi kürdlər də Ermənistanı tərk etməyə başlayıblar. ANS PRESS-in məlumatına görə, bu barədə erməni mətbuatına müsahibəsində Ermənistan Yezidiləri İttifaqının sədri Əziz Tamoyan bildirib. Onun sözlərinə görə, yezidi kürdlərin yaşadığı bir çox kəndlər boşalmağa başlayıb. "Bizim kəndlərdə iş yoxdur. Heyvandarlıq isə həddindən ağır işdir" deyən Əziz Tamoyanın sözlərinə görə, Ermənistan məmurları yezidilərə bu işlə məşğul olmağa mane olurlar. Erməni məmurlar yezidi köçlərinin yaylaqlara qalxmasına əngəlləyirlər. Məsələn, Şirak vilayətinin kəndlərindən birində üç aylıq müddətə yaylağa qalxan yezidilər geri döndükdə kəndin başçısı onlara 2,5 milyon dram (həmin vaxtkı məzənnə ilə təxminən 6 min dollar) cərimə yazıb. "Əgər yezidilərə dağlara qalxmaq qadağan edilərsə, onlar heyvanlarını necə saxlayacaqlar? Belə olarsa, yaylaqlardakı örüşlər də baxımsız qalacaq. Elə edirlər ki, yezidilər heyvanlarını satıb Ermənistanı



tərk etsinlər",- deyə Tamoyan vurğulayıb. Sayı dünyada 0,7 milyona çatan yezidilər kürdlərin İslamdan əvvəlki inancı olan saabiliyin dəyişmiş formasına ibadət edirlər. Yezidilərin eradan əvvəl 2-ci əsrdə Orta Asiyadan İrana girmiş və 7-ci əsrə qədər İran ordusunu nəzarətdə saxlamış yarımköçəri qor və sor tayfalarını nəsli olduğu güman edilir. Onlar İrana girdikdən sonra fars dilinə keçsələr də, zərdüşti inancını qəbul etməyiblər. Müsəlman kürdlərin 80 faizinin yezidi, 20 faizinin isə ərəb mənşəli olduğu güman edilir. Yezidi inancı 13-cü əsrə qədər türk yakut (saxa) tanrıçılığı ilə tamamilə eyni idi. Hər iki dində Günəş və ağ at Tanrının simvoludur. Həmçinin Tanrıdan əlavə hər iki dində dünyanın mələklər tərəfindən idarə edilməsi barədə təsəvvürlər var. Saxalar mələkələrə "eye", yəni yiyə deyirlər. Adını Yəzdan (Tanrı) sözündən götürmüş yezidi inancı ilə tanrıçılıq arasında fərqlər 12-cü əsrdə yarandı. Bu fərqlər Livan ərəbi Şeyx Adi ibn Müsafir tərəfindən daxil edildi. O, İslamdan götürdüyü elementlərlə Mələk Tavusu (Şeytanı) baş mələk elan etdi, yezidi kürdləri arasında şeytanı söymək qadağan edildi. Beləliklə, yezidilik satanist elementlər daşımağa başladı ki, bu, çevrədə yaşayan müsəlman kürdlər tərəfindən düşmənçiliklə qarşılandı. Həmçinin, yezidilikdə Hindistandan götürülmüş kasta sistemi tətbiq edildi, onlar şeyxlərə, pirlərə, mirlərə və müridlərə bölündü. Hazırda yezidilər əsasən Şimali İraqda yaşayır, mütəmadi olaraq müsəlman kürdlər və İŞİD tərəfindən hücumlara məruz qalırlar. Ermənistanda 50 min yezidi yaşayır və rəsmi dairələr biləərəkdən onların sayını 35 minə salırlar. Rusiya mafiyasının qətlə yetirilmiş lideri Ded Hasan (Aslan Usoyan) da milliyyətcə yezidi kürdüdür.

# PKK-nın qız qaçırmasına etiraz edən suriyalılar küçələrə axışdı

Suriyanın Amude şəhərində yerli sakinlər PKK-nın Suriya qoluna (PYD) qarşı aksiya



keçirib. Musavat.com-un məlumatına görə, PYD-nin qız qaçırmalarına etiraz edən camaat əllərində şüarlar yazılan afişalarla küçələrə axışıb. Etiraz edən suriyalılar bildirib ki, PYD qızları zorla ailələrindən alaraq müharibəyə hazırlayacaqlarını bəhanə edib sonra məlum olmayan yerə aparırlar. Digər tərəfdən suriyalılar tələb ediblər ki, PYD nəzarətində olan Amude həbsxanasında saxlanılan kürdləri azad etsin. Onlar bildiriblər ki, azadlıqları üçün döyüşən kürdlərin minlərlə kürdü həbsxanada saxlamaqlarına məna verə bilmirlər.

# Kobani yenidən kürdlərin əlində

İraq Şam İslam Dövləti (İŞİD) terror təşkilatına qarşı döyüşən kürd döyüşçüləri Suriya-



Türkiyə sərhədində yerləşən Kobani şəhərinin böyük hissəsində nəzarəti ələ alıb. Teleqraf.com euronews.com-a istinadən xəbər verir ki, bu barədə mərkəzi Londonda yerləşən Suriya İnsan Haqları Təşkilatı məlumat yayıb. Məlumatda bildirilir ki, hazırda kürd döyüşçüləri Kobaninin 80 faizinə nəzarət edirlər. Bu arada təşkilat həmçinin Hələb şəhərində prezident Bəşər Əsədə sadiq qüvvələrlə müxalif qruplar arasında döyüşlərin yenidən şiddətlənməsi ilə bağlı açıqlama verib.

# İŞİD Türkiyə sərhədində dəhşət törətdi: 16 ölü, 4 yaralı

Kilis sərhədinə yaxın bölgədə İŞİD tərəfindən avtomobillə intihar hücumu həyata



keçirilib. Teleqraf.com-un "Sabah"a istinadən xəbərinə görə, hücum nəticəsində hadisə yerində 14 nəfər həlak olub, 6 yaralı isə Kilis Dövlət Xəstəxanasına gətirilib. Xəstəxanaya gətirilən yaralılardan 2 nəfər ölüb. Ağır yaralılar isə Qazientepə göndərilib.

# "Allah yolunda ölməyə gedirəm" – 20 yaşlı gənc İŞİD-ə qoşulmaq üçü evi tərk etdi

20 yaşlı gənc "Allah yolunda ölməyə gedirəm" sözlərinin yazılan məktubu otağına qoyaraq, İŞİD-ə qoşulmaq üçün Suriyaya gedib. Publika.az xəbər verir ki, hadisə Türkiyənin Adana şəhərinin Mərkəz Çukurova qəsəbəsində qeydə alınıb. Abdullah Safi adlı gəncin 20 yaş var. O, liseyi bitirdikdən sonra Əskişəhər Anadolu Universitetinin Açıq Tədris Fakültəsi İlahiyyat bölümünə daxil olub. Yanvarın 5-də ailəsinə məktub yazaraq evi tərk edib. Səhər oğlunu otağında tapmayan atası Ahmet Safi məktubu görüb. Məktubda "Allah yolunda ölməyə gedirəm" yazılıb. Abdullah məktubunda cihadın müsbət tərəflərindən də bəhs edib.

Ata oğlu haqda polisə məlumat verib. Aparılan



araşdırmalarda həmin gecə onunla birlikdə üç dostunun da evi tərk etdiyi ortaya çıxıb. 20 yaşlı Abdullahın İŞİD-ə qoşulduğu ehtimal olunur. "O mənim göz bəbəyimdir. Bu günə qədər onun rahat yaşaması üçün əlimdən gələni etdim. Bir ilə yaxındır ki, özünü dinə həsr etdi. Lakin radikallığı yox idi. Namazlarını qılar, ibadətini edərdi. 6 ay öncə saqqal uzatmağa başladı. Getməmişdən 2-3 gün öncə saqqalını da kəsmişdi. Məktubundan İŞİD-ə qoşulmaq üçün getdiyini anladım", - deyə ata Ahmet bildirib. Abdullahın anası Yıldız Safi isə oğlundan sonra yatağa düşüb. O, "Bizə bu pisliyi etmə, nə olar, evinə qayıt. Əgər qayıtmasan, mən ölərəm, sən də gəlib mənim cənazəmi yuyarsan. Bizi sənsiz buraxma", - deyə oğluna səslənib.

# Diyarbəkirdə ermənilərin Türk-Kürd qardaşlığına qarşı əməllərinin iç üzü açıldı

## "Türklərin və kürdlərin anlaşa bilməyəcək heç bir sorunu yoxdur"

18-20 dekabr 2014 tarixlərində Türkiyənin Diyarbəkir şəhərinin Dicle Üniversitetində düzənlənən "Köçün 100-cü ildönümündə Osmanlının son dövründəki üsyanlar" ("Tehcirin 100 yılında Osmanlının son dönemindeki isyanlar") beynəlxalq simpoziumun ikinci günündə ilk olaraq Azərbaycandan Naxçıvan Dövlət Universitetinin müəllimi, doç. dr. Qalibə Hacıyeva qeyd etdi ki, XX. yüz ildə özəlliklə Sovetlər Birliyində 1905-1906, 1918-1920, 1948-1963 və 1987-1992-ci illərdə ermənilər tərəfindən soyqırıma məruz qalmış Azərbaycan Türkləri 1990-cı illərdə ermənilərin gerçəkləşdirdiyi "Türksüz Ermənistan" planına görə sonuncu dəfə tamamən öz baba yurdlarından deportasiya edildikdən sonra bu sahədə Türk tarixi və mədəniyyəti tamamən məhv edilərək erməni vandalizminin qurbanı olmuştur: "Ermənilər tərəfindən dəfələrcə Azərbaycan Türklərinə qarşı törədilmiş soyqırım eyni şəkildə tarixi Türk mədəniyyətinə qarşı yönəldilmiş, Türk kəndləri tamamən yandırılmış, milli mədəniyyət abidələri, özəlliklə müsəlman məscidləri məhv edilmiş və sonucda Türk dilinin canlı şahidləri olan tarixi coğrafi adlar kökündən yox edilərək deyişdirilmiştir. Əski dönəm tarixi-coğrafi xəritələr və Osmanlı arxiv bəlgələri üzərə toponimik araşdırmalardan anlaşılır ki, indiki Ermənistanda son dönəmlərdə siyasi amacla deyişdirilmiş qədim tarixə malik mövcud toponimlərin çoxu əski Türk mənşəli coğrafi adlar olaraq bu qiymətli qaynaqlarda Türk dilinin tarixi yadigarı olaraq qorunmaqdadır". Eyni zamanda, azərbaycanlı alim ermənilərin işğal altında olan məscidlərdə donuzların, mal-qaranın saxlanılmasına, Xocalı soyqırımına diqqəti çəkdi. Qalibə xanım sonda bildirdi ki, "Türksüz Ermənistan" kimi monodövlət yaradan ermənilər işğal etmiş olduğu tarixi Türk torpaqlarında əski Türk mənşəli coğrfi adları dəyişdirməklə tarixi unutdurmağa çalışmış olsalar da, əski arxiv bəlgələri və tarixi qaynaqlar, özəlliklə Osmanlı dönəmi qaynaqları bu tarixin silinməsinə və unudulmasına imkan verməyəcəkdir.

Daha sonra AMEA Şərqşünaslıq İnstitutunun böyük elmi işçisi, dos. dr. Cavid Qasımov "Ermeni Tehciri (Yer değiştirme) (Azerbaycan Basınında)" mövzusunda çıxış etdi. O bildirdi ki, 1915-ci il olayları zamanı Bakıda və digər Azərbaycan şəhərlərində 30-a yaxın qəzet və dərgilər nəşr olunmuşdur ("Hnçak", "Dəvəti-Qoç" vəb.). Ona görə bu qəzetlərdə sözdə erməni soyqırımı insanların şüuruna yeridilməyə çalışılmışdır.

Aksaray Unversitetinin təmsilçisi dr. Refik Turan isə "Lise Tarih Ders Kitaplarında "Ermeni Sorunu" ve "Tehcir"" adlı məruzəsində diqqəti orta məktəblərdə bu məsələyə münasibətə toxundu. Ona görə, orta məktəblərdə "Erməni sorunu" və "Təhcir" anlayışlarının şagirdlərə doğru çatdırılmasının böyük önəmi var. O, örnəklərlə göstrdi ki, orta məktəblərdə bu anlayışları şagirdlər tam mənimsəmirlər. Turanın fikrincə, öncə Türkiyə vətəndaşaları bu anlayışları doğru bilməlidirlər.



Erciyes Universitetinin əməkdaşı dr. Ali Korkmaz "Tehcirin 93. Yılında "Özür Diliyorum İmza Kampanyası"nın Basına Yansımaları" məruzəsində bildirdi ki, bir qrup Türk aydınının ermənilərdən "Böyük fəlakət" adıyla üzr diləmək kampaniyası aparması Türkiyədə birmənalı qarşılanmamışdır. Belə ki, bir çox qəzetlərdə ("Hürriyyət", "Milliyyət", "Radikal" vəb.) həm Türk aydınları, həm də ermənilər buna müxtəlif cür reaksiya veriblər. Türk aydınları ermənilərə qarşı heç bir soyqırımın olmadığını müdafiə etdiyi halda, ermənilər isə "Böyük fəlakət" sözü ilə razılaşmadıqlarını ortaya qoymuşlar.

Daha sonra Bingöl Universitetinin təmsilçisi dr. Kasım Tatlıoğlu "Tehcir Kavramı ve Tehcirin Psiko-Sosyal ve Günümüz Real Politik Bağlamda Değerlendirilmesi", Bitlis Eren Universitetinin təmsilçisi dr. Serap Toprak "Rum İsyanlarını Hazırlayan İtici Güçler", Sakarya Universitetinin təmsilçisi dr. Turgut Subaşı "Mora İsyanı ve Osmanlı-İngiliz İlişkileri", Sinop Universitetinin təmsilçisi dr. Hüseyin Vehbi İmamoğlu "19. Yüzyıl Bulgar İsyanlarında Avrupanın Rolü ve Osmanlı Devletinin Reaksiyonu", Makedoniyadan araşdırmaçı-qəzetçi Eyüp Salih "Makedonyadaki Osmanlıya Karşı İsyanlar" mövzularında məruzə ediblər.

Simpoziumun bağlanış oturumunda iki gün ərzində dinlənən məruzələr dəyərləndirildi. Belə bir nəticəyə gəlindi ki, Avropanın da dəstəklədiyi erməni uydurmalarına qarşı Azərbaycan, Türkiyə və b. müsəlman ölkələrinin alimləri eyni mövqedən çıxış etmişlər. Bildirilərdən bəlli oldu ki, 1915-ci ildə baş verən köç olayları zamanı daha çox əziyyət görən, soyqırıma məruz qalan türklər və kürdlərdir. Bunu edən Avropa və Rusiyanın dəstəyi ilə ermənilər olub. Gələcəkdə də bu cür simpoziumların keçirilməsi məqsədəuyğun sayıldı. Bununla da simpozium öz işini başa vurdu. Simpoziumun isə günündə iştirakçıların Diyarbəkir və Mardin şəhərlərinə gəzintilər təşkil edildi. Öncə Diyarbəkirin tarixi yerləri olan Ulu Camiyə, Hz. Süleyman camisine, Keçi Bürücünə, dörd dayaqlı minarəyə, erməni kilsəsinə daha sonra Mardində əski tarixi abidələrə (Deyrul Zafaran Manastırı, Ulu Cami vəb.) ziyarət edildi.

Doğrudan da, Diyarbəkirin və Mardinin hər bir qarışında bir tarix yatır. Sadəcə, təəssüf doğuran hal odur ki, bu tarixi şəhərlərdə insanlar arasında qarşılıqlı sevgi, inam, etibar və barış duyğuları bir qədər azalmışdır. Ancaq sevgi, inam, etibar və barışın yerini isə müəyyən qədər qorxu, inamsızlıq və etimadsızlıq tutumuşdur.

Şübhəsiz, bu qorxu, inamsızlıq və etimadsızlıq müvəqqətidir. Çünki türkü, kürdü, türkməni ilə buradakı insanlar barışa, sevgiyə, etibara daha çox meyillidirlər. Tarixən bu torpaqlarda hüzur içində yaşayan insanların arasında nifaq toxumu səpənlər türkün də, kürdün də, türkmənin də, ərəbin də düşmənləridir. Bu düşmənlər isə başda ABŞ olmaqla Qərb dünyasıdır. Bunu Diyarbəkirdəki, Mardindəki kürdləşmiş türkmənlər də, kürdlər də, türklər də başqaları da yaxşı anlayırlar. Məncə, Qərb dünyasının bu bölgədəki əsas kartı az saydakı ermənilər və suriyanilərdir. Özəlliklə, kürdcə danışan-kürdləşmiş ermənilər kürdlər və türklər arasındakı əski sevginin yenidən ortaya çıxması üçün əllərindən gələni edirlər və bu yolda Qərbdən böyük dəstək alırlar. Diyarbəkirin, Mardinin küçələrində gördüyümüz insanların üzlərindən oxuduğumuz, dillərindən eşitdiyimiz barış və sevgi hissləri daha güclədir. Bəzi kürd qardaşlarımız vaxtilə Qərbin oyunları nəticəsində kürdlərə münasibətdə müəyyən hüzursuzluqların olduğunu, ancaq son zamanlar bunun aradan qaldırıldığını da etiraf edirlər. Artıq kürdlərin ana dillərində təhsil almaları, qəzetlər nəşr etmələri, telekanallar açmaları problem deyildir.

Sadəcə, əskidən qalan inamsızlıq və güvənsizlik bərpa olunmadığı üçün zaman-zaman müəyyən xoşagəlməz olaylar baş verir. Ancaq bu o demək deyil ki, Diyarbəkir də hüzur içində yaşamaq mümkün deyildir. Yəni Diyarbəkirdə, Mardində həyat televizyalarda, qəzetlərdə verilən xəbərlərdə olduğu kimi heç də qorxulu deyildir. Tərsinə, Türkiyənin digər yerlərində olduğu kimi bu bölgəmizdə də insanlar öz işlərinin başındadırlar.

Bu baxımdan Diyarbəkir, Mardin küçələrində, caddələrində polislə vətəndaş arasında da ciddi problemin olmadığına, sadəcə müəyyən çəkingənliyin davam etməsini gördüm. Özəlliklə, Türk polisinin Diyarbəkirdə, Mardində Türkiyənin digər şəhərlərində olduğu kimi, heç bir ayrımçılıq yapmadan insanların, Türkiyə vətəndaşlarının hüzurunu qorumağa çalışdıqlarına inanması lazımdır.

Həmin polislər, əsgərlər arasında türkü də, kürdü də, çərkəzi də vəb. da vardır. Bu mümkün deyildir ki, türk, kürd öz polisinə deyil, hansısa yad bir qüvvəyə, ya da terrorist qruplaşmalara inansınlar. Unutmamalıyıq ki içimizə nifaq toxumu səpənlər, birliyimiz pozanlar məhz həmin yad qüvvələrdir.

Məncə, bu bölgədə müəyyən qədər hökm sürən etimadsızlığın aradan qaldırılmasının tək yolu türk və kürd qardaşlığının arasına girmiş yad qüvvələri görməmizdir. Eyni zamanda, bunu görməklə iş bitmədiyi üçün, yad qüvvələrin Türk-İslam birliyinə vurduğu zərbələri zərərsizləşdirmək lazımdır. Yalnız bu halda yüz illərlə sürən birliyimiz yenidən geri gələcək, artıq düşmənlərimizi sevindirməyə birlikdə son verməli olacağıq.

Bunu üçün də türklər və kürdlər müəyyən qədər hökm sürən inamsızlığa, bu inamsızlığın nəticəsi də olaraq ayrı-ayrı köşələrə çəkilərək fısıldaşmağa son qoymalıdırlar. Yəni insanlarımız birbirləri ilə birbaşa vasitəçi olmadan danışmalı və anlaşmalıdırlar. Öncəliklə, üçüncünün aramıza soxulmasına yol verməməliyik. Nə zamana qədər aramızda üçüncü olacaqdır inamsızlıq və çəkingənlik də davam edəcəkdir. Bu anlamda dərdlərimizi, sorunlarımızı vasitəçi-üçüncü olmadan çözəcəyik. Zənnimizcə, geniş anlamda isə türklərin və kürdlərin anlaşa bilməyəcək heç bir sorunu yoxdur. Sadəcə, yad qüvvələrin son zamanlarda düşüncələrimizə yeritiyi zərərli fikirlərə deyil, yüzillərə söykənən sağlam birliyimizə, dirliyimizə, adət-ənənələrimizə əsaslansaq hər şey yoluna girmiş olacaqdır.

Əslində bu gün Diyarbəkirdə, Mardində, Şirnakda, Hakkaridə və bu bölgədəki bütün torpaqlarda hüzurun yenidən bərpa olunması yolunda bəzi yanlışlıqlarla yanaşı ciddi işlər görülməkdədir. Sadəcə, bu işlər görülərkən yəni Türk-Kürd qardaşlığı normala qovuşdurularkən Türkiyənin bütövlüyünə, əzəmətinə zərrə qədər xələl gətirilməməlidir. Çünki Türkiyənin bütövlüyü, əzəməti sarsılarsa bunda uduzan yalnız türklər deyil, bütövlükdə türkü, kürdü, çərkəzi, romanı, ərəbi ilə bütün Türkiyə olacaqdır. Eyni zamanda Türkiyənin milli-mənəvi qardaşı olan Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan, Quzey Kipr Türk Cümhuriyyəti bir sözlə bütün Türk və İslam dünyası zərər görmüş olacaqdır. Bu anlamda artıq düşmənlərimizi sevindirməkdən əl çəkməli, əski birliyimizi bərpa etməliyik.

Allah birliyimiz pozmasın! Türk-İslam birliyi daha da güclü olsun!

**teleqraf.com**

# Türkiyə-Suriya sərhədində 1000 tüfəng ələ keçirildi

Türkiyənin Suriya ilə sərhədində min ədəd pnevmatik tüfəng ələ keçirilib. Publika.az-ın Türkiyə mediasına istinadən verdiyi məlumata görə, bu barədə Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargahından bildirilib. Qeyd edilir ki, 20 şəxsin qaçaqçılığa cəhd etdiyi sərhəddəki qüllə növbətçiləri tərəfindən müəyyənləşdirilib. Hadisə yerinə cəlb olunan Operativ Müdaxilə Briqadası şübhəli şəxslərə "dayan" xəbərdarlığı edib. Naməlum şəxslərin xəbərdarlığa qulaq asmamasından sonra xəbərdarlıq atəşi açılıb. Bundan sonra isə həmin şəxslər gəldiyi istiqamətə - Suriya tərəfinə qaçmağa



məcbur olub. Hadisə yerində aparılan axtarışlar zamanı min ədəd pnevmatik tüfəng və sursat ələ keçrilib.

# "Anonymous" İŞİD və Əl-Qaidəyə müharibə elan etdi

Məşhur haker qrupu "Anonymous" "Əl-Qaidə" və İŞİD terror təşkilatlarını hədələyib. Publika.az-ın xarici mətbuata istinadən verdiyi məlumata görə, internet vasitəsilə videomüraciət yayan qrup "Charlie Hebdo" satirik jurnalın redaksiyasına edilən hücumun qısasını alacaqlarına söz verib.

"Bütün terrorçuları sona qədər izləyəcəyimizə və məhv edəcəyimizə söz veririk. Siz günahsız insanları öldürürsünüz, biz onların ölümü üçün qisas alacağıq", - müraciətdə deyilir.



"Anonymous" həmçinin "qisas kampaniyası" çərçivəsində sözügedən təşkilatların sosial şəbəkələrdəki səhifələrini və onların saytlarını dağıdacağını bildirib.



Nəriman Əyyub

## RÜBAİLƏR

Sözü ki, aşkarda deyə bilmirsən,
Daldada da onu heç söyləmə sən.
Nə qədər gizlində söyləsən onu,
Çıxacaq aşkara o söz yenidən.
***
Ağladan yaxşıdır, güləndən qorun,
Güldürənlər olur nakişi, harın.
Heyvan kimi yeyir, şişirdir özün,
Boğaz kimi olur o yekə qarın.
***
Nadanın yanında susmaq yaxşıdır,
Pisliyi eyləmək nadan naxışıdır.
Sən isə heç kimə pislik eyləmə,
Pisliyi eyləmək vəhşi baxışıdır.
***
Yaramaz adama qoşulan insan,
Yaramazlıqları öyrənir ondan.
Çalış yaramazı yaxın buraxma,
Yaramazı yaxın buraxar nadan.
***
Hər zahiri göyçək gözəl ola bilməz,
Bu bir həqiqətdir, get dünyanı gəz.
Üzdən gözəllərin çirkini çoxdur,
Daxildən gözəli eyləməz əvəz.
***
Ağıllı adamlar dalaşmaz heç an,
Ona o ağılı verib Yaradan.
Özünü aparır daim ağıllı,
Heç vaxt əyə bilməz onları nadan.
***
Danışıb başqanın sözünü kəsmə,
Nə də ki hirslənib havayı əsmə.
Səndən əvvəl danışana qulaq as,
Ağıllı sözündən heç zaman küsmə.
***
Bir məclisdə tək danışıb coşma ki,
Bəlkə orda var səndən ağır çəki.
Danışdırmasalar danışma heç an,
Artıq danışarsan çəkərsən yükü.
***
Düşməni dostuna çevirən insan,
Ağıllı adamdır sən ona inan.
Nə lazım daimi düşmənlik etmək,
İnsan düşmən doğulmayıb anadan.
***
Əsil dost odur ki eybini desin,
Dost ilə daimi düz çörək yesin.
Üzdə dost, daldada giley eyləsə,
Elə dostdan daim aranı kəsin.
***
Verilən suala tez cavab vermə,
Qönçələnən gülü tezliklə dərmə.
Sözü də tez desən çaşa bilərsən,
Hər olan işləri tələsik görmə.
***
Mümkün olmayanı heç arzu etmə,
Tanış da olmayan yollara getmə.
Bir də görəcəksən azıbsan yolda,
Cəviz ağacının altında yatma.
***
Qadına vacib şey həya ismətdir,
Həya insan üçün olan sərvətdir.
Həyası, isməti olmayan kəsin,
Ömürü keçdikcə ona töhmətdir.
***
Vaxt keçdikcə ömür çatacaq başa,
Çalış ki, ömrünü yaxşıca yaşa.
Elə ömür sür ki hər zaman, hər an,
Havayı dəyməsin ayağın daşa.
***
Bəd söz var daimi kəsdirər başı,
Söz də var dəyərli, kəsər savaşı.
Elə söz söyləmək gərəkdir sənə,
Deyəndə başına vurmasın daşı..
***
Lovğalıq eyləmək son xəcalətdir,
Axırda insana böyük töhmətdir.
Nə lovğalıq etmə, nə yalan danış,
İnsanı yüksəltmək ancaq zəhmətdir.
***
Var-dövlət dənizin suyuna bənzər,
Onu çox yığdıqca qəlbini əzər.
Yığdıqca qədrini bilməyən kəslər,
Axırı itirər, sərvətsiz gəzər.
***
Elmlə, ədəblə tapılar şərəf,
Mirvari olmasa nə lazım sədəf..
Çox bəzənməyin də vəfası yoxdur,
Bəzənmək acgözün gözünə hədəf.
***
Ağıllı adamlar kin saxlamazlar,
Kin saxlayar ancaq ağılı azlar.
Qardaş da qardaşdan inciyər bir an,
Kin saxlayan ancaq var yaramazlar.
***
Dost dostun yolunda düşər zindana,
Dost odur ki, hər əziyyətə dayana.
Dostun arxasından tez qaçan insan,
Doğru tərbiyəni verməyib ana.
***
Kədər qarşısında baş əymə heç an,
Hər olan ağrıya mərdliklə dayan.
Zəiflik göstərib tez əyildinsə,
Onda çox əziyyət çəkəcəkdir can.
***
Pisliyə pisliklə sən cavab vermə,
Nanəcib etdiyi işləri görmə..
Pisliyə yaxşılıq edin deyiblər,
Yaxşı yetişməmiş meyvəni dərmə..
***
Tamah qul eyləsə səni dünyada,
Yaradan Allahı daim sal yada.
Allah səni təmiz yaradıb deyə,
Daimi nəzarət edəcək o da.
***
Ağlın az olsa da özünün olsun,
Yaxşı işlər daim beyninə dolsun..
Xoşa gəlməz işi yaxına qoyma,
Yaxşı əməllərin dünyada qalsın.
***
Həyat səhnəsində insan aktyordu,
Aktyorluq insanı daimi yordu.
İşsiz bu dünyada gəzən adamlar,
Ya beyni zəifdi, ya gözü kordu.



Barîyê Bala

## HEWAR-HEWAR!

Ev çi qetle, ser axa min dixulqînin?
Çi şirîte, gelê min pê dixeniqînin?
Ev çi qeyde, zendê gelêm dişidînin?
Ev çi daxe, ser dilê wî dikişînin?

Ev çi zulme, xwînrêj dîsa min dikuje?
Ev çi ewre, teyroka sar jê dirije?
Ev çi qeyse, bejna gelêm dipîvînin?
Çi beroşe, gelêm tê da dihelînin?

Dicle digrî, Firat melûl dilûvîne,
Erez naçe, Mûrad hêsra dibarîne.
Agrîya kal girêdaye reşê tarî,
Sîpan, Zagros cî leqyane, tên hewarî.

Silêmanî, Mehabada dil kul-birîn,
Dêrsim, Batman, Şirnax û Mûş, him jî Efrîn,
Kerkûk, Çewlik, Bitlîs, Zaxo, çîyayê qulpê,
Bûne kulmek, qebûl nakin evê qetlê.

Qers, Qaqizman, Amed, Îgdîr, Sêrta zêrîn,
War-miskenê kal û bava Wana rengîn.
Deşta Berzan, Gelyê Zîlan, reş Helebce,
Sondê dixun, neyar bikin parçe-parçe.

Mûsil, Cizîr, Şengal, Xarpût, Ruha ezîz,
Mereş, Mêrdîn, Malatîya, him jî Elezîz.
Agrî, Serdeşt, şêr Ûrmîya, gola Wanê,
Ricim dikin, hovî-hara vê devranê.

Îro boy we şînê daye, tew Kurdistan,
Êy şehîdê, gelê xwe yê derdê giran.
Heykelê we wê bilind be, her qulçekê,
Heyfa weyê bê sendinê, zûtirekê.



Hüseyn Kürdoğlu

## DOST OLMAZ ERMƏNİDƏN

Əzəl başdan günahkar özümüzük, qeyri yox,
Duymadıq ki, xainin qılığı var, mehri yox.
Gözümüzün yağını yedirtsək də, xeyri yox,
Öz kökündən bitər ot, yenə həməndir, həmən,
Dost olmaz ermənidən!

Gizli qəbir qazırmış bizə bu gor qonşumuz,
İnanmadıq felinə qurduqca tor qonşumuz.
Kəsdiyi duz-çörəyə, ocağa kor qonşumuz,
Əkdiyimiz şumlara səpirmiş zəhərli dən,
Dost olmaz ermənidən!

Qafasında min ilin xəyanət qurdu varmış,
Bir damcı küdurətin dənizcə ardı varmış,
İçində ilan kimi qıvrılan dərdi varmış,
Hayk imiş ifritənin əmcəyindən süd əmən,
Dost olmaz ermənidən!

Yurd-yuva dağıdanın yurdu tar-mar gərək,
Havalanan başlara geniş dünya dar gərək.
Qonşu quduz olanda ortadan hasar gərək,
Babalar dediyini nə tez unutmuşam mən:
Dost olmaz ermənidən!

Köpəklər kölgəsində şirə dönər tulalar,
Təkbətək meydanında quyruğunu bulalar.
Qəhmər çıxanı çoxdur, olanları malalar,
Nifaq toxumlarını hey cücərtdi yenidən,
Dost olmaz ermənidən!
Axçi-harsun gətirib nəslimizə caladıq,
Qızıl gülü soldurub, qaratikan suladıq.
Axırda güllələndik, qanımızı yaladıq,
Bu söz ata sözüdür bir az dərin düşünsən:
Dost olmaz ermənidən!

Girəvə düşən kimi ədavəti körüklər,
Yurdumuzun daşına, torpağına yeriklər.
Bayquşdur, öz nəslini qaranlığa sürüklər,
Diz çöksün qarşımızda gərək boynunda kəfən,
Dost olmaz ermənidən!

Yamanlıq taxta çıxıb, yaxşısı da yamandır,
Qanan da qanmazlaşıb, başı-beyni dumandır.
Nəbi nəsli, düşmənə fürsət vermə, amandır,
Əsirgəmə gülləni, hünərinə min əhsən,
Dost olmaz ermənidən!

İblis ürəyindədir, mələk donu geysə də,
Milyon kərə and içib, başına daş döysə də,
Öz kökünə, zatına tüpürsə də, söysə də,
Daha bir də inanma, ulu xalq, ulu Vətən!
Bil ki, qan düşmənindir, bil ki, can düşmənindir,
Dost olmaz ermənidən!

*10.04.92*

## TORPAĞIMA GÖZ DİKMƏ SƏN

Torpağıma göz dikmə sən,
Gözünə güllə sıxaram.
Çıxardaram ciyərini,
Bağrını şişə taxaram.

Çənlibel soylu dəliyəm,
Savaşdan ötrü ləliyəm.
Havalanmış dağ seliyəm,
Qayalar yarıb axaram.

Şirə qalmasın dişində,
Dağam, durmuşam döşündə.
Belə qudurma, başında
İldırım təki çaxaram.

Qalay çəkmə paxırına,
Başını sal axuruna.
Dinc dur, sənin axırına
Çıxaram, vallah çıxaram!

*1990*



Tariyel Cəlil

## AZƏRBAYCANIM

Ən uca zirvəsən sən, ən yüksək bayrağın var,
Dünyalara səs salan səsin var, sorağın var.
Yaxşıların içində öz yerin, öz adın var,
Xalqımızın şöhrəti, şanı Azərbaycanım,
Hər kəsin qürur yeri, canı Azərbaycanım.

Qartal kimi zirvədə qanadlanıb uçursan,
Açılmayan qapıları qüdrətinlə açırsan.
Günəş kimi, ay kimi hər tərəfə saçırsan,
Dünyamızın sultanı, xanı Azərbaycanım,
Hər kəsin qürur yeri, canı Azərbaycanım.

Bu şərəfli ölkənin Azərbaycan adısan,
Ömrümüzün bəzəyi, ağzımızın dadısan.
Damarlarda çağlayıb, goşub-daşan qanısan,
Küskün sənin övladın, tanı, Azərbaycanım,
Hər kəsin qürur yeri, canı Azərbaycanım.

## ULU HEYDƏR OĞLUSAN

Müstəqil ölkəmizi zirvələrə ucaltdın,
Xalqın üçün yaşadın, xalqın üçün yaratdın.
Millətininin yolunda saçlarını ağartdın,
Hər kəsin sevimlisi, şərəfli bir adısan,
Xalqımızın baş tacı, Ulu Heydər oğlusan.

Keçilən bütün yolun əyrisi var, badı var,
Hamı eyni ölçülməz, yaxşısı var, yadı var,
Xalqımızın şərəfli, tükənməyən adı var,
Ürəklərdə yaşayan, Əliyevlər soyusan,
Tarixlərə yazılan, Ulu Heydər oğlusan.

Sair Celil diləyir,ürəkdə bir arzudur,
Allah səni qorusun, dünya boyu yaşa,dur.
Əbəssiz bir lidersın, yenə yarat, yenə qur,
Azərbaycan xalqının, sevincinin dadısan,
Xoş günləri bəxş edən, Ulu Heydər oğlusan.

## YOX BABA, SƏN GÖRƏN DÜNYA DEYİL BU

Misin lələdən dəyərlidi, dəyəri,
Yox bab, sən görən dünya deyil bu.
Bu dünyanın, diz üstədi çörəyi,
Yox baba, sən görən dünya deyil bu.
Qarğalar qartaldan yüksəkdə uçur,
Gədəni Aqildən nadanlar seçir,
Mərdin cığırından, namərdlər keçir,
Yox baba, sən görən dünya deyil bu.

Izi yoxdu divarının, daşının,
Dadı itib plovunun, aşının.
Oxunmayır surələrin, yasinin,
Yox baba, sən görən dünya deyil bu.

Haram pulla həccə gedir "dədələr",
Bığ yerinə, saç uzadır gədələr.
Yada düşmür sən qoyduğun hədələr,
Yox baba, sən görən dünya deyil bu.

Görünürük, yalnız kişi donunda,
Misri qılınc pas bağlayıb qınında.
Yerimiz yox o dünyada yanında,
Yox baba, sən görən dünya deyil bu.

Uçurdular, sən tikdiyin talvarı,
Dağ kişisi, məkan seçib "bulvarı".
Dəyişdirib ərlə-arvad şalvarı,
Yox baba, sən görən dünya deyil bu.

Baba, Celil görənləri görmədin,
Nə yaxşı ki, sən bunları bilmədin.
Şükür olsun, belə ömür sürmədin,
Yox baba, sən görən dünya deyil bu.

## GEDECEM

Derdle yuklenecem yene bu axsam,
Son defe gorusub cixib gedecem.
Illerle qurduqum esq sarayini,
Daqidib, ucurub, yixib gedecem.

Qüsseni, kederi, qemi götürüb,
Özümü özümden alib itirib,
Bütün xosbextliyi sona yetirib,
Resmini sineme sixib gedecem.

Baxisin üzümde donub qalacaq,
Bu görüs son vida, sonum olacaq,
Od alib icimde esqin yanacaq,
Eriyib, suzulub, axib gedecem.

Gulum, daha dusme esq bataqina,
Qoyma birde girim qem otaqina.
Sevgi qatarinin derd yataqina,
Serilib, dunyaya baxib gedecem.

Celilem, gözünün yasindan qacib,
Yox olub dünyandan goylere ucub,
Ebedi zindanin qapisin acib,
Odlayib, yandirib, yaxib gedecem.

www.arsivakurd.org

# İtirdiyimiz tarixi yurdlar: ZƏNGƏZUR

Bu gün Ermənistan Respublikasının ərazisində qalan Zəngəzur tarixi Azərbaycan torpağıdır.

Tarixi mənbələrdə, müxtəlif səyyahların yazılarında göstərilib ki, Zəngəzur Azərbaycanlıların qədim yurd yeri olub. Zəngəzurdakı Azərbaycan mənşəli toponimik adların çoxluğu da bu fikri təsdiqləyir. XVIII əsrdə Zəngəzur mahalının ərazisinin böyük hissəsi Qarabağ xanlığının, bir hissəsi isə Naxçıvan və İrəvan xanlığının tərkibində olub. Zəngəzur mahalı Çar Rusiyası dövründə Gəncə (Yelizavetpol) quberniyasının tərkibində olub. XX əsrin əvvəllərində Zəngəzur mahalında **149 azərbaycanlı** kəndi, **191 kürd kəndi** və **81 erməni** kəndi var idi.

Zəngəzur mahalının tarixi ərazisi qərbdən Zəngəzur, şərqdən Qarabağ dağları ilə əhatələnmiş geniş bölgə olub.

Zəngəzur mahalı bir neçə bölgədən ibarət olub: Qafan, Gorus, Qarakilsə (Sisian), Mehri, Zəngilan, Qubadlı, Laçın.

* * *

1918-1920-ci illərdə Zəngəzur Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi olub.

Həmin dövrdə Zəngəzur qəzası Şuşa, Cavanşir, Cəbrayıl qəzaları ilə birlikdə Qarabağ general-qubernatorluğuna daxil idi.

Eyni zamanda, həmin dövrdə Ermənistan (daşnak) Respublikası Zəngəzurla bağlı torpaq iddiaları irəli sürüb. Bölgədə münaqişə, silahlı toqquşmalar olub. 1920-ci il 28 apreldə Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra Zəngəzur Azərbaycanın tərkib hissəsi kimi ayrıca inzibati bölgə - qəza olub.

Bu vaxt Ermənistan (daşnak) Respublikası Zəngəzuru anneksiya etmək üçün silahlı mübarizəni davam etdirirdi. Bölgənin böyük hissəsi erməni qüvvələrinin faktiki nəzarəti altında idi. Eləcə də Qarabağın dağlıq hissəsində erməni qüvvələrinin hücumları davam edirdi. Azərbaycan SSR hökuməti (Müvəqqəti İnqilab Komitəsi) 1920-ci il 30 aprel tarixli notasında Ermənistandan Zəngəzur və Qarabağı öz qoşunlarından təmizləməsini tələb etmişdi.

Bu arada bolşevik Rusiyası Azərbaycanın ardınca Ermənistanın da sovetləşməsi üçün erməni əhalisini müxtəlif şirnikləndirici addımlarla ələ almaq istəyirdi. Bu şirnikləndirici addımlar isə Azərbaycan ərazisinin bir hissəsinin Ermənistana verilməsi ilə bağlı idi. Mikoyan başda olmaqla erməni liderləri bolşevik Rusiyasının rəhbəri Lenini inandırmağa çalışırdılar ki, Zəngəzurun (eləcə də Naxcıvanın və Qarabağın) Ernənistana verilməsi erməni xalqının sovet hakimiyyətinə inamını artıra bilər.

Lenin tərəfindən Zaqafqaziya üzrə fövqəladə səlahiyyətli şəxs (faktiki Qafqaz canişini) təyin olunmuş Orconikidze də bu məsələdə ermənilərə dəstək verirdi.

Rusiyanın xarici işlər naziri Çiçerin 1920-ci il iyunun 2-də Orconikidzeyə məktubunda bu məsələ ilə bağlı yazırdı: "Daşnak (Ermənistan) ilə hökuməti ilə kompromisə nail olmaq bizə vacibdir".

* * *

1920-ci il 10 avqustda Rusiya K(b)P-nin Qafqaz Bürosu Azərbaycanın bolşevik rəhbərliyinin razılığı olmadan Naxçıvanın Şərur-Dərələyəz bölgəsini Ermənistana vermək barədə qərar çıxardı, Qarabağ və Zəngəzur isə Azərbaycanla Ermənistan arasında "mübahisəli ərazilər" elan olundu.

Bolşevik Rusiyası Azərbaycan torpaqları hesabına Ermənistanı şirnikləndirmək və sovetləşdirmək siyasəti Azərbaycanın kommunistləri tərəfindən etiraz doğurdu.

Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin sədri Nərimanov buna qarşı çıxaraq Leninə məktub yazdı. Nərimanov yazırdı ki, Mərkəzin çıxardığı qərarlar Azərbaycan əhalisi arasında Rusiyaya və sovet hökumətinə inamı sarsıda bilər: "Zəngəzur və Qarabağın neytrallaşdırılması, yaxud daşnaklara verilməsi… (Azərbaycan müsəlman əhalisi tərəfindən) xəyanət sayılacaqdır… Müsəlman kütlələr Sovet hakimiyyətinin Azərbaycanın ərazi bütövlüyünü qorumamasını satqınlıq, ermənipərəstlik yaxud sovet hakimiyyətinin zəifliyi hesab edəcəklər…"

("К истории образования Карабахской автономной области Азербайджанской ССР. 1918-1925. Документы и материалы. Баку, Азернешр, 1989, с.56 ).

Lakin bu etirazların faktiki nəticəsi olmadı. Çünki Azərbaycanın sobet rəhbərliyində də ermənilər güclü qüvvəyə malik idilər.

Bu arada bolşevik Rusiyası Azərbaycanın sovet hökuməti ilə və tezliklə qurulması gözlənilən Ermənistan sovet hökuməti ilə ikitərəfli sazişlər hazırlayırdı.

Azərbaycan sovet hökuməti bu sazişdə ərazi bütövlüyü məsələsinin təmin olunmasına da ümid bəsləyidi. Erməni komministləri də Zəngəzur, Naxçıvan və Qarabağ məsələsinin öz xeyirlərinə həllini gözləyirdilər.

1920-ci il noyabrın 29-da Ermənistnda (Yerevanda) sovet hakimiyyətinin qurulduğu elan olundu, hərçənd bölgələrdə daşnak hökuməti hələ tam süqut etməmişdi. Zəngəzurun Ermənistana verilməsi 1920-ci il noyabrın 30-da keçirilən Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasının qəbul etdiyi qərarı ilə həll olundu.

Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasında 3-cü məsələ kimi "Ermənistanda İnqilab Komitəsinin Ermənistanda Sovet hakimiyyətinin elan olunması haqqında teleqramı" müzakirə edildi və qərar çıxarılmışdı.

AK(b)P MK Siyasi və Təşkilat bürolarının bu birgə iclasının (30.XI.1920) qəbul etdiyi "tarixi" qərarlara aydınlıq gətirmək məqsədilə orada iştirak edənlərin tərkibinə də mütləq diqqət yetirilməlidir: Q.Orconikidze, Sarkis (S.Ter-Danielyan), Y.Stasova, Q.Kaminski, N.Nərimanov, Ə.Qarayev, M.Hüseynov. İclasın qərarının "v" bəndində yazılırdı: "… Sovet Azərbaycanı ilə Sovet Ermənistanı arasında heç bir sərhəd mövcud deyildir. Qərarın başlıca məqsədi onun mərkəzi bəndində ("q") öz əksini tapmışdı. Orada deyilirdi ki, Zəngəzur və Naxcıvan sovet Ermənistanın tərkibinə keçirlər.

Digər bəndlərdə isə yazılırdı:

d) Qarabağın Dağlıq hissəsinə öz müqəddəratını təyin etmək hüququ verilir;

e) Sovet Azər baycanı sovet Ermənistanı ilə qırılmaz hərbi və təsərrüfat ittifaqı bağlayır (o cümlədən neft haqqında göstərilsin).

Qərarda həmçinin ("j" və "i" bəndləri) Nərimanova bütün bunlar barədə bəyanat hazırlamaq və onu Bakı Sovetinin plenumunda elan etmək tapşırılırdı.

S.Orconikidzenin təkidi ilə tarixin qara səhifəsinə düşəcək bu bəyanatı məhz N.Nərimanov elan etməli idi. Nərimanov qərarın əleyhinə idi, xüsusilə Naxcıvanla bağlı məsələyə qəti qarşı çıxırdı. Zəngəzurun isə bütünlüklə deyil, erməni əhalisinin çoxluq təşkil etdiyi qərb hissəsinin Ermənistana verilməsini mümkün sayırdı. Qeyq edək ki, ermınilərin 1918-ci ildə Zəngəzurda həyata keçirdiyi qırğınlar nəticəsində burada azərbaycanlı əhalisinin sayı kəskin azalmışdı. 1920-ci il dekabrın 1-də Nərimanov Azərbacan K/b/P MK Siyasi və Təşkilat bürolarının birgə iclasından qərarı barədə bəyanat verdi. Nərimanov həmin bəyanatda yalnız Zəngəzurdan bəhs edirdi.

-Nərimanovun Bakı Sovetinin iclasında verdiyi bəyanat (rusca):

«Советский Азербайджан, идя навстречу борьбе братского армянского трудового народа против власти дашнаков, проливающих и проливавших невинную кровь наших лучших товарищей-коммунистов в пределах Армении и Зангезура, объявляет, что отныне никакие территориальные вопросы не могут стать причиной взаимного кровопускания двух вековых соседних народов: армян и мусульман. Территория Зангезурского уезда предлагается Сов. Армении, и трудовому крестьянству нагорного Карабаха предоставляется полное право самоопределения; все военные действия в пределах Зангезура приостанавливаются, а войска Советского Азербайджана выводятся»

(Mənbə: газета «Коммунист», Баку, 2 декабря 1920 г.).




